# “TARİXLƏRDƏ QALACAQ”

Mövlud Teymur Azərbaycanın kifayət qədər tanınan, ilhamlı şairləri sırasında öz əsərləri ilə yerini tutan, mövqeyini göstərən şairlərimizdən biridir. Onun söz, sənət yolu Azərbaycan tarixinin real mənzərəsi ilə kifayət qədər bağlıdır.

Hər bir sənətkar üçün yaşadığı dövrə münasibət göstərmək gördüyü zamanı xarakterizə etmək mənəvi borcdur. Bu mənada Mövlud Teymur zamanının sənətkarı olaraq hadisələrə reallığa uyğun olaraq münasibətini bildirməkdən çəkinmir. Əgər söz-sənət adamı kimi onun yaradıcılığını axıracan izləməli olsaq, görərik ki, siyasi hadisələrin xalqın taleyi ilə nə qədər dəqiq aydınlığı ilə bağlı olduğunu öz əsərlərində bütün mənəvi imkanları ilə əks etdirməyə çalışıb və demək olar ki, buna nail olub. Sözün mənəvi mühiti əks etdirən, daha dəqiq desək, müəllifin özünü ifadə imkanlarını göstərən məqamları həmişə uğurlu olmur. Bunun üçün müəllifin səmimiyyəti, müəllifin həyat hadisələrinə doğru-dürüst münasibəti əsas şərtdir. Hər hansı bir mövzunu yazmaq üçün müəllif azaddır, sərbəstdir. Ancaq siyasi hadisələr, xüsusilə siyasi hadisələrin lideri ilə bağlı əsərlər asanlıqla uğur qazanmır. Çünki bir çox müəlliflər boğazdan yuxarı yazır. Obrazı səmimi hisslərlə yazıya gətirmir, gətirə bilmir. Bunun üçün gərək müəllif obrazı sevsin, onu mənəvi mühitinin əsas daşıyıcısı hesab etsin. Məhz bu zaman şair - sənətkar yaratdığı əsərlərdə kifayət qədər oxucuya, oxucu hisslərinə yaxınlaşa bilər, doğmalaşa bilər. İnsafən Mövlud Teymur zaman-zaman Azərbaycanın siyasi həyatı ilə bağlı dəyərli poetik əsərlər yaradıb. Onun Heydər Əliyevin vəfatı ilə bağlı təəssürat poeması ədəbi mühit üçün kifayət qədər təqdir olunacaq gücdə bir əsərdir. Çox təəssüf ki, bu əsər ədəbi tənqidimiz tərəfindən qədərincə diqqətə alınmayıb və həmin əsər haqqında müəllif düşüncəsinə dəyər vermək baxımından mülahizələr bildirilməyib. Həmin əsərdən bəzi məqamları burada yada salmaq da olardı. Ancaq bu barədə əvvəllər bəhs etdiyimizdən təkrara varmaq istəmirik. Müəllifin həmin poemasında Heydər Əliyevin ölümü sadə insanların yaşadıqları itki hissinin təsvirini əhatə edir. Mövlud üçün Heydər Əliyev elə bir itkidir ki, bu, Azərbaycan göynəyi olaraq zaman-zaman xatırlanacaq. Hətta onun üçün Heydər Əliyevin ölümü uzaq dağ kəndindəki qohumlarının yaşadıqları yas, kədər hissləri ilə müşayiət olunur. Deməli, Mövlud böyük insanın ölümünün mahiyyətini sözə gətirməkdə, özü də ağrı ilə sözə gətirməkdə kifayət qədər güclü müəllifidir. Sözün-sənətin gücü, dəyəri ondadır ki, yazılanların içində xalqın, bütöv ictimai mühitin istəyi ifadə olunsun.

Bu yerdə Mövlud Teymurun “Tarixlərdə qalacaq” adlı kitabı ilə bağlı təəssüratımızı yazıya gətirmək istərdik. Bu kitabda Mövlud Teymurun Azərbaycan dövlətçiliyinin sarsılmazlığı, gücü liderin şəxsiyyəti ilə üzvi şəkildə bağlanır. Müəllif liderin kimliyini xalqın mənəvi tamlığı ilə və ən başlıcası, dövlətin iradəsi ilə birlikdə təqdim olunur. Mövlud Teymurun “Tarixlərdə qalacaq” kitabına məxsusi olaraq siyasi hadisələri əks etdirən şeirləri daxil edilib. Əlbəttə, biz burada Heydər Əliyev obrazını tərənnüm edən şeirləri də görürük. Ulu öndərə ünvanlanmış bu şeirlərin hər birində yenilməzlik obrazı ilə tanış oluruq. Şübhəsiz, sənətkarın yaradıcılığı üçün heç bir resept yoxdur. Amma bütün hallarda sənətkarın mənəvi mühitə münasibəti onun yazdıqlarında öz istəyinə uyğun olaraq görünür.

Mövlud Teymurun “Tarixlərdə qalacaq” müxtəlif obrazların tərənnümü ilə yazılmış poetik əsərlər daxildir. Əlbəttə, biz bu əsərlərin sırasında ulu öndərə həsr olunmuş poetik lövhələri də oxuyuruq. Ulu öndərin yolunu uğurla davam etdirən İlham Əliyevə həsr olunmuş şeirləri də maraqla izləyirik. Hətta Azərbaycan mənəvi mühitində bu gün kifayət qədər özünə nüfuz və hörmət qazanmış və ən başlıcası, Azərbaycanın mənəvi anası olaraq tanınan Mehriban Əliyevaya həsr olunmuş şeiri də görürük. Bu şeirdə Heydər Əliyev fondunun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın obrazı yaradılıb. Ümumiyyətlə, Mövlud Teymur hər hansı bir obraza münasibətdə tarixə ənənəvi olaraq müraciət edir. Obrazın tarixi köklərini aramağa çalışır. Və Mehriban xanıma həsr elədiyi şeirdə də Tomrisdən üzü bəri, hətta Qarabağ ağrılarına qədər düşüncələri ümumiləşdirməyə çalışır. Ən yaxşısı, həmin şeiri oxuculara bütöv təqdim etməkdir. Bu şeirdən anlaşılan, duyulan hiss budur ki, Mehriban xanım hər kəsi həqiqəti aramağa çağırır.

Şərəfli iş görür, xoş məramlıdı,
Gözəl gələcəyə çox inamlıdı,
İlham kimi təbli, o ilhamlıdı,
Ərzə həqiqəti, haqqı aradır!

Murdar qonşuların açıb üzünü,
Parisdə, Londonda deyir sözünü,
Daşnaq erməninin töküb gözünü,
Dünyada əvəzsiz dünya yaradır!

Yorulmaq bilməyən mehriban qadın,
Ucaltdı hər yanda Tomris tək adın,
Ölməz anasıdır eşqin, muradın,
Gördü ki, düşmənin üzü qaradır!

Ağa ağ dedi o, qaraya qara,
Lənətlər yağdırdı o daşnaqlara.
Söylədi siz hara, Qarabağ hara,
Əvvəldən köksünüz para-paradır!

Mövlud, səfiridir gücün, qüdrətin,
Əzmin, əzəmətin, böyük zəhmətin.
Çəkdi keşiyini xalqın, millətin,
Vətəni aradır, xalqı aradır!

Demək, müəllif istəyir ki, insanlar bilsinlər, kim həqiqəti aramağa çağırır, kim doğrunu, düzgünü tanıtmağa çağırır. Qoy hər kəs anlasın ki, həqiqət heç vaxt ölmür, itmir, hətta ölmüş bir insan kimi kəfənə bükülüb qəbrə qoyulmur. Mehriban xanımın böyük əməllərinin müqabilində özünün gördüyü işin dəyərini, yəni yazısını, sözünü çox cüzi bir xidmət hesab edir. Bu, əlbəttə, bir şair təvazökarlığıdır. Bir sənətkar çəkingənliyidir. Bütün hallarda xalqın, millətin keşiyini çəkən insanların qarşısında şair öz xidmətini çox cüzi hesab edir. Hətta bunu heç bir dəyər gücündə də görmür.

Bir sözlə, Mövlud Teymur kimi sənətkarlar başqalarına hiss etdirmədən, hətta qürrələnmədən xalqın, vətənin uğrunda çarpışan insanların həyat və mübarizə yolunu sözün həqiqi mənasında bir döyüşçü missiyasında görür və bu cür də qiymətləndirməyə çalışır. İnsafən Mövlud kifayət qədər ilhamlı sənətkardır. Onun sözün həqiqi mənasında Mehriban Əliyevanı Tomrislə müqayisə edə biləcək gücdə misraları kifayət qədər bədii imkanlarla üzə çıxır. Onun ədəbi qəhrəmanı Londonda, Parisdə, dünyanın müxtəlif guşələrində sözünü deyə bilən şəxsiyyətdir. Hətta bir çox bəşəri dəyərlər səviyyəsində çıxışları ilə göstərir ki, insanlığın anası misssiyasını daşıyır. Bütün bunlar Mövlud Teymurun sadəcə tərənnümü deyil, onun inamının nəticəsidir.

Mövlud Teymur bütün yaradıcılığı boyu Azərbaycan dövlətçiliyinə sadiqdir. Mövlud Teymurun çoxlu şeirləri var ki, ulu öndər və Atatürk obrazları yan-yana çəkilir. İlham Əliyev adı bu obrazların davamçısı kimi səslənir. Sənətkarın “Tarixlərdə qalacaq” kitabına “ön söz” yazan Əməkdar jurnalist Zümrüd Bayramova müəllifin həmin kitabı ilə bağlı qeydlərində göstərir: “Heydər Əliyev Azərbaycanın mədəniyyət və incəsənətinə böyük qiymət verərək, onun dünyada tanınmasına



çalışmışdır. Öz vətəninin istedadlı yaradıcı şəxslərinə hörmət, məhəbbətlə yanaşaraq daim diqqətdə saxlamışdır. Mövlud Teymur böyük şəxsiyyətin Azərbaycan ziyalılarına - yaradıcı şəxslərinə olan isti münasibətini bədii boyaların, ifadə vasitələrinin köməyi ilə poetikləşdirir. Kitabda yer alan şeirlər sırasında Mövlud Teymurun “Dövlət, sənət”, “Deyir Rəsul Rzaya” məhz Azərbaycan poeziyasında qələmi ilə tanınan böyük şair, xalq şairi Rəsul Rzaya Ulu öndərin münasibəti lirik formada təqdim olunur. Dövlət xadimi ilə şair arasında yaranmış mənəvi körpünü şair ustalıqla yaradaraq hər iki simanın məxsusi dəyərlərinin təsvirinə nail olur.

Biri şair, biri dövlət adamı - deyən şair dünyaya siyasəti, qələmi ilə soraq salan insanların Azərbaycana xidmətini vətəndaşlıq mövqeyinin nümunəsi tək göstərir:

Hər ikisi haqqa tərəf yollandı,
Bu gedişlə nə yoruldu, usandı.
Ancaq çatıb zirvələrdə dayandı,-
Şahin oldu, qartal oldu dünyada,
Arzu oldu, amal oldu dünyada!

“Tarixlərdə qalacaq” kitabı bir ömrün həyat səhifələrini, böyük şəxsiyyət Heydər Əliyevin Azərbaycançılıq ideyasını özündə əks etdirir”. Bu qeydlər də göstərir ki, ədəbi mühitdə Mövlud Teymurun öz yeri var. Onu kifayət qədər duyan, qiymətləndirən müəlliflər var. Və elə buradaca Mövlud Teymurun “Yaradan əllər” poeması ilə bağlı mülahizələrimizi də bildirməyi özümüzə borc bilirik. Sözün həqiqi mənasında Mövlud öz təbinə uyğun hisslərlə yaradan əllərin nəyə qadir olduğunu bu əsərində göstərməyə cəhd edib və ən başlıcası, istəyinə nail olub:

Düz adam, düz insan oldu Əliyev,
Ömründə bir nöqsan, bir səhv etmədi.
Sevdi kainatı, həm insanları,
Heç küyə, kələyə, felə getmədi!

Səliqə-sahmana üstünlük verdi,
Yaşadı ömrünü qeyrətlə, arla.
Bütün insanlara nümunə oldu,
Ürəklər oxşayan bir iftixarla!

Yığdı-yığışdırdı dağılmışları,
Yerində məbədlər, saraylar tikdi.
Doğrunu axtardı haqqı çağırdı,
Gözünü hər zaman insana dikdi.

Mövlud Teymurun “Yaran əllər” poeması kifayət qədər uğurlu əsərdir. Zənnimcə, bu əsəri təhlil etməyə o qədər də ehtiyac yoxdur. Təkcə ayrı-ayrı parçalar, misralar müəllifin poetik gücünü göstərməyə qadirdir. Elə bunu təqdim etməklə yaradan əllərin nəyə qadir olduğunu şair düşüncəsindən keçən və görünən müstəvidə göstərmək bəs edər:

İnandı güləcək bir vaxt arzumuz,
Dərələr, təpələr hamar olacaq.
Bizim üzümüzə açan gül, çiçək,
Yamyaşıl, al-əlvan bahar olacaq.

Doğacaq Günəş də, çıxacaq Ay da,
Uçacaq o mavi göydə göyərçin.
Güləcək bu yaxın günlərdə zəfər,
Olacaq arzumuz, istəyimiz çin.

Müəllifin intuisiya hissləri oxucunu heyrətdə qoyur. Hələ Qarabağ müharibəsi qabaqdadır. Hələ Azərbaycan öz gücünü diktə etməyib. Ən azı, hələ həmin tarixə kifayət qədər vaxt var. Amma müəllif o böyük arzunun çin olmağını kifayət qədər aydınlığı ilə görür. Bu təkcə Ali Baş Komandanın zəfəri deyildi, bu həm də ulu öndərin qüdrətinin, istəyinin nə vaxtsa həqiqət olacağına işarə idi. Müəllif həmin məqamları öz hisslərinin təsiri altında yazır:

Böyük zəhmətini duyun öndərin,
Qəbrini ziyarət edəcəyik biz.
Əbədi açdığı cığırla gedib,
Hər arzumuza yetəcəyik biz.

Müəllifin inamı çox aydındır. O, bütün varlığı ilə ulu öndərin və onun varisi İlham Əliyevin inadının və arzularının yerinə yetəcəyi inamı kifayət qədər müəllif düşüncəsində görünən səviyyədədir. Bütün hallarda Mövlud Teymurun bir şair olaraq ali dərəcədə Azərbaycan həqiqətlərinə inamı onun “Yaradan əllər” əsərində açıq-aydın görünür:

Saraylar ucladtı, körpülər saldı,
Yeraltı keçidlər fəaliyyətdədir.
Ürəyi oxşayır parklar, bağçalar,
Yorğun insanlar istirahətdədir.

Hamı əhsən deyir, yaşa söyləyir,
Bu gözəl günlərə, parlaq günlərə.
Onunçün minnətdar olub xalqımız,
Yaradan əllərə, quran əllərə!

Bu əsər təkcə M.Teymurun uğuru deyil. Bu əsər Heydər Əliyev ideyalarına inanan, İlham Əliyevin komandanlığına güvənən söz sahiblərinin hamısının uğurudur. Bütün hallarda Mövlud Teymur ona görə təqdir olunmalıdır ki, o Azərbaycan əyalətində yaşayan Azərbaycanın mənəvi sərhədlərini dövlətçilik müstəvisində qoruya bilir. Ona görə ki, o, ali dövlət qurucusunun və onun davamçısının Azərbaycan üçün nə demək olduğunu son anına qədər yaxşı bilir və bunu axıracan dərk eləyir.

Mövlud Teymur şair kimi Azərbaycanın mənəvi sərvətlərinin qoruyucusudur.

Ə.Əzizli
*13.03.2023*